# VCT ÖLÇÜ MEYARI

## Şərq Tərəfdaşlığı ölkələrində vətəndaş cəmiyyəti mühitinin qiymətləndirilməsi

## Azərbaycan: Ölkə üzrə yenilənmiş versiya

BAKI

2020

European Center for Not-for-Profit Law

Funded by the European Union

MG CONSULTING
Law and project management

Müəlliflər: Məhəmməd Quluzadə (fəlsəfə doktoru) və Emin Rzayev (MG Consulting MMC)

**MG Consulting MMC** Azərbaycanda qeyri-kommersiya hüququ üzrə ixtisaslaşmış, yerli və xarici müştərilərinə, o cümlədən diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatlara müxtəlif hüquqi xidmətlər göstərən qeydiyyatdan keçmiş konsaltinq şirkətidir. MG Consulting QHT, kənd təsərrüfatı və sahibkarlıq, o cümlədən sosial müəssisələrlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ekspert xidmətləri təqdim edir. Şirkət təlimlərin keçirilməsində, ölkə hesabatlarının, o cümlədən qanunu oxucuya aydın şəkildə izah edən müxtəlif nəşrlərin hazırlanmasında geniş təcrübəyə malikdir. Bundan əlavə, 1300-dən çox QHT fəalı olan "QHT qanunverciliyi" adlı feysbuk səhifəsini və qrupu, həmçinin, "NGO Azerbaijan" adlı mobil tətbiqetməni idarə edir.

**Qeyri-Kommersiya hüququ üzrə Avropa Mərkəzi (ECNL)** vətəndaş cəmiyyətinə təsir edən qanun və qaydalar sahəsində qabaqcıl Avropa mənbəyi və tədqiqat mərkəzidir. ECNL insanların sərbəst şəkildə təşkilatlana, birlikdə formalaşa biləcəyi mühitin yaradılmasını dəstəkləyir və cəmiyyətlərin inkişafına töhfə verir. ECNL-in həyata keçirdiyi fəaliyyət vətəndaş cəmiyyəti təşkilatlarına sərbəst şəkildə fəaliyyət göstərmək, maliyyə baxımdan davamlı olmaq, güclü idarəçiliyə yiyələnmək, qanun-qaydaların hazırlanmasında iştirak etmək və ictimai dəstəyi səfərbər etmək üçün şəraitin yaradılmasında yardımçı olur. Vətəndaş cəmiyyəti üçün əlverişli mühiti təşviq edən qanun-qaydaların hazırlanmasından əlavə, ECNL yerli maraqlı tərəflərə bu yöndə səlahiyyətlər verir, alət və mexanizmlərin tətbiqinin monitorinqini aparır və tədqiqat, təhlil yolu ilə bilik bazası yaradır.

Müəlliflər bu nəşrə yardım göstərənlərə səmimi minnətdarlıqlarını ifadə edirlər.

Müəlliflik hüquqları © 2020 ECNL və MG Consulting MMC-yə məxsusdur. Bütün hüquqlar qorunur.

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız müəlliflər məsuliyyət daşıyırlar və o, heç bir halda Avropa Birliyinin mövqeyini əks etdirən sənəd kimi qəbul edilə bilməz.

# MÜNDƏRİCAT


## ABBREVİATURALAR 4

## I. QISA İCMAL 5

## II. ƏSAS TENDENSİYALAR 7

## III. ƏSAS YENİLİKLƏR 9

3.1 Birləşmək azadlığı 9

3.2 Bərabər rəftar 9

3.3 Maliyyəyə çıxış 9

3.4 Dinc toplaşmaq azadlığı 11

3.5 Qərarların qəbulunda iştirak etmək hüququ 12

3.6 İfadə azadlığı 13

3.7 Şəxsi həyatın toxunulmazlığı hüququ 14

3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi 14

3.9 Dövlətin dəstəyi 155

3.10 Dövlət-VCT əməkdaşlığı 155

3.11 Digər yeni proseslər 16

## IV. ƏSAS PRİORİTETLƏR 188

## V. İSTİNADLAR 19

# ABBREVİATURALAR

| | |
|---|---|
| ÇPY/TMM | Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə |
| AZN | Azərbaycan manatı |
| VCT(lər) | Vətəndaş cəmiyyəti təşkilat(lar)ı |
| KSM | Korporativ sosial məsuliyyət |
| ECSOFT | Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi |
| FATF | Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| ÜDM | Ümumi Daxili Məhsul |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| QHT-lərə Dəstək Şurası | Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası |
| AHT | Açıq hökumətin tərəfdaşlığı |
| USAID | Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi |
| ƏDV | Əlavə dəyər vergisi |

# I. QISA İCMAL

Bu hesabat dövrü əsasən iki hadisə ilə əlamətdar olmuşdur: birincisi, mövcud qanunlara vətəndaş cəmiyyəti təşkilatlarına (VCT) təsir edəcək bir sıra dəyişikliklərin qəbulu və ikincisi, COVID-19 pandemiyasının təsirləri. Belə qanunvericilik dəyişikliklərinə misal olaraq 29 noyabr 2019-cu ildə Vergi Məcəlləsində, 3 dekabr 2019-cu ildə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və 17 mart 2020-ci ildə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda edilmiş dəyişiklikləri göstərmək olar. Bu yeni qanunvericiliyin VCT-lərə həm müsbət, həm də mənfi təsiri olmuşdur. Bu dəyişikliklər yeni maliyyə öhdəlikləri yaratmış və həmçinin söz azadlığı üçün potensial təhdidləri artırmışdır. Bundan əlavə, COVID-19 pandemiyası VCT-lərin fəaliyyətini iflic etmişdir. Digər tərəfdən, VCT-lərin fəaliyyəti üçün ümumi mühit əhəmiyyətli dərəcədə dəyişməmişdir.

Bu qanunvericilik dəyişiklikləri əsasən 1 yanvar 2020-ci ildə qüvvəyə minmişdir. Bu hesabatın müvafiq dövrü ərzində həyata keçirilmiş müxtəlif layihələr Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə (ÇPY/TMM) sahəsində, eləcə də VCT-lərin qeydiyyatı sahəsində VCT-lərin rolu barədə məlumatlılığı artırmışdır. İctimai şuralar da ÇPY/TMM ilə bağlı maarifləndirilmişlər və bu fəaliyyətlər nəticəsində VCT-lər qərarların qəbulunda iştirakla bağlı zəruri məlumatlar almışlar. Eyni zamanda, VCT-lərdən qanunvericiliyin və digər sahələrin inkişafı ilə bağlı müxtəlif təkliflər toplanmışdır. Hesabat dövründəki əsas hadisələrdən biri də 9 fevral 2020-ci ildə keçirilmiş parlament seçkiləri idi. Azərbaycan VCT-lərinin təxminən 20 rəhbəri deputatlığa namizədliyini verdi və onlardan bir neçəsi parlamentə seçildi. 2020-ci ilin birinci rübü eyni zamanda 2020-2022-ci illər üçün Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsünün (OGP) Fəaliyyət Planının qəbulu və COVID-19 pandemiyasına qarşı mübarizə ilə əlamətdar oldu. VCT-lər sonuncuda yaxından iştirak etmiş və hökumət VCT-lərin fəaliyyətinə təsir edəcək bəzi qərarlar qəbul etmişdir. Bu qərarlara misal olaraq Azərbaycanda xüsusi karantin rejiminin tətbiqini və kütləvi tədbirlərin qadağan edilməsini göstərmək olar. AHT-yə dair Fəaliyyət Planının hazırlanmasında hökumət "VCT Ölçü vahidi" sənədində verilmiş bəzi tövsiyələri nəzərə almışdır. Məsələn, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (ƏN) nümayəndəsi bildirmişdir ki, VCT-lərin və onların qrantlarının elektron qaydada qeydiyyatı üçün tədbirlər görülür. Bununla belə, VCT-lərin qeydiyyatı, maliyyələşməyə və qrantlara çıxış imkanı, xidmət müqavilələrinin və ianələrin qeydiyyatı, həmçinin qərarların qəbul edilməsində VCT-lərin iştirakı ilə bağlı məsələlər problem olaraq qalır. 2020-ci ilədək ölkədə 4500-dən çox qeydiyyatdan keçmiş VCT olmuşdur. VCT-lər üçün

qeydiyyat müddəti otuz gündür, əlavə araşdırmalara ehtiyac olduqda bu müddət daha otuz gün uzadıla bilər. Lakin praktikada bir VCT-nin qeydiyyatı illərlə vaxt apara bilər.

"VCT Ölçü meyarı" sənədindəki bəzi tövsiyələrin AHT-yə dair Fəaliyyət Planında nəzərə alınmasına, hökumətin VCT-lərin qeydiyyatını rəqəmsallaşdırmağa hazır olduğunu nümayiş etdirməsinə və VCT-lər arasında məlumatlılığın artırılması üzrə bəzi layihələrin həyata keçirilməsinə baxmayaraq, VCT mühitində, xüsusən də qeydiyyat və maliyyələşməyə çıxış imkanı məsələlərində, əhəmiyyətli dəyişikliklərə nail olunmamışdır. Bundan əlavə, COVID-19 pandemiyası hesabat dövründə VCT-lər üçün əlavə maneələr yaratmışdır ki, bu da öz növbəsində VCT-lərin dinc toplaşmaq və birləşmək azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır.

# II. ƏSAS TENDENSİYALAR

## Əsas məlumatlar

**Paytaxt:** Bakı
**Ölkə əhalisi**: 10.067.100 nəfər[1]
**Adambaşına ÜDM:** 42.906,4 avro[2] (2019)
**"Dünyada azadlıq" hesabatında statusu:** 10/100 (Qeyri-azad)[3]
**"Dünya mətbuat azadlığı indeksi"ndə göstəricisi:** 58,48[4]
**VCT-lərin sayı** (2019-cu ilin fevralınadək olan məlumat): 4.500
**Qeydiyyat rüsumu:** 11 AZN (5,5 avro)
**Qeydiyyat müddəti:** 30 gün (bu müddət əlavə 30 günlüyə uzadıla bilər)

## Sonuncu hesabatdan bəri vətəndaş cəmiyyətinə təsir göstərən hadisələr və proseslər

2019-cu illə müqayisədə 2020-ci ildə qeydiyyata alınmış VCT-lərin sayı artmış və 4500-ü keçmişdir. Bu dövrdə ən əlamətdar hadisə 9 fevral 2020-ci il parlament seçkiləri nəticəsində bəzi VCT rəhbərlərinin parlamentə seçilməsi oldu. Beləliklə, VCT-lərin qərarların qəbulu prosesində iştirak etmək imkanları artmışdır. 2019-cu ilin noyabrından 2020-ci ilin mart ayınadək müxtəlif layihələr çərçivəsində VCT-lərin potensialının artırılmasına yönələn bəzi məlumatlandırma fəaliyyətləri həyata keçirilmişdir. Eyni zamanda, VCT-lər ÇPY/TMM sahəsindəki hüquqi öhdəlikləri barədə məlumatlandırılmışlar. Buna misal olaraq USAID tərəfindən maliyyələşdirilən FATF mövzusunda Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT) layihəsi çərçivəsində 18 dekabr 2019-cu ildə keçirilmiş beynəlxalq konfransı göstərmək olar. Bu tədbir VCT-lərin ÇPY/TMM ilə bağlı ağır tələblərlə əlaqədar narahatlıqlarını hökumət rəsmilərinə bildirmələri üçün fürsət idi.

27 fevral 2020-ci ildə Nazirlər Kabineti yanında müvafiq dövlət idarə və orqanlarının rəhbərlərindən ibarət Operativ Qərargah yaradıldı.[5] COVID-19 pandemiyasına cavab olaraq Operativ Qərargah 24 mart 2020-ci ildən 20 aprel 2020-ci ilədək Azərbaycan Respublikasında xüsusi karantin rejimi elan etdi[6] və bu dövrdə fiziki şəxslərin və nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıldı, əksər sahibkarlıq subyektlərinin və

1 https://www.stat.gov.az/source/demography/.
2 https://www.stat.gov.az/source/system_nat_accounts/.
3 https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2020.
4 https://rsf.org/en/azerbaijan.
5 https://nk.gov.az/az/article/680/.
6 https://nk.gov.az/az/article/761/.

təhsil müəssisələrinin fəaliyyəti dayandırıldı. Karantin müddəti daha sonra 31 avqust 2020-ci ilədək uzadıldı. Bu dövrdə VCT-lər öz fəaliyyətlərini onlayn rejimində həyata keçirdilər və pandemiyaya qarşı mübarizə üçün mühüm qərarlar qəbul edildi. Məsələn, 2 aprel 2020-ci ildə Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası (QHT-lərə Dəstək Şurası) COVID-19 ilə əlaqədar olaraq 391 VCT ilə onlayn konfrans keçirdi. Konfransın məqsədi problemləri müzakirə etmək və VCT-lərin bu sahədəki fəaliyyətlərini daha yaxşı əlaqələndirmək idi. Konfransın nəticəsi olaraq, 4 aprel 2020-ci ildə QHT-lərə Dəstək Şurasının onlayn iclasında Azərbaycan Respublikasında koronavirusun yayılmasının qarşısının alınması tədbirləri müzakirə edildi və "QHT-lərin koronavirusla mübarizəyə həsr olunan ümumrespublika onlayn konfransı"nın iştirakçıları tərəfindən irəli sürülən təkliflərin həyata keçirilməsinə qərar verildi.

6 noyabr 2020-ci ildə QHT-lərə Dəstək Şurası COVID-19 ilə mübarizə üçün "QHT-lərin İctimai Qərargahı"nı yaratdı. O, VCT-lərin qırx təmsilçisindən və QHT-lərə Dəstək Şurasının nümayəndələrindən təşkil edildi. Eyni zamanda, QHT-lərə Dəstək Şurası REAL TV ilə birlikdə "Evdə qal, cəmiyyəti qoru" adlı yeni layihəyə başladı. Bu layihə ərzində COVID-19 haqqında tibbi məlumatlılığın artırılması, sosial medianın rolu, QHT-lərə Dəstək Şurası tərəfindən nəşr olunan kitabların müəllifləri ilə görüşlər, milli mətbəxin tarixi və s. mövzularda ictimai müzakirələrin aparılması nəzərdə tutulurdu.

2020-ci il aprelin 5-dən mayın 5-dək və 2020-ci il iyunun 21-dən avqustun 5-dək hökumət COVID-19-un yayılmasının qarşısını almaq məqsədilə insanların yaşayış yerlərini tərk edərkən icazə almalarını nəzərdə tutan xüsusi SMS icazə sistemi tətbiq etdi.

Hesabat dövründə əvvəlki illərlə müqayisədə qeydiyyata alınmış VCT-lərin və qrantların sayının artmasına, QHT-lərə Dəstək Şurası tərəfindən SƏLIS xidmətinə start verilməsinə və kommersiya təşkilatlarının mənfəətlərinin 10 faizini VCT-lərə köçürməsi mexanizminin qəbul edilməsinə baxmayaraq, VCT-lər üçün uzun qeydiyyat prosesi və maliyyələşməyə bürokratik əngəllər hələ də problem olaraq qalır. Bundan əlavə, dar çərçivəli meyarların tətbiq edilməsi səbəbindən kommersiya təşkilatlarının mənfəətlərinin 10 faizini VCT-lərə köçürməsi mexanizmi yalnız kiçik bir VCT qrupuna imkan yaradır. Nəticədə VCT-lərin məqsədlərini həyata keçirmələri və faydalı nəticələr əldə etmələri üçün daha böyük imkanlar yaradan heç bir əsaslı dəyişiklik olmamışdır. Bundan əlavə, COVID-19 pandemiyası ilə əlaqədar görülən tədbirlər VCT-lərin fəaliyyətində bir sıra məhdudiyyətlər yaratdı ki, bu da ümumi VCT mühitinə mənfi təsir etdi. Yuxarıda qeyd edilənlərin əsasında hesabat dövründə vətəndaş cəmiyyəti mühitində ciddi bir dəyişiklik olmadığı qənaətinə gəlmək olar.

# III. ƏSAS YENİLİKLƏR

## 3.1 Birləşmək azadlığı

Hesabat dövründə birləşmək azadlığı sahəsində əhəmiyyətli dəyişiklik olmamışdır. VCT yaratmaq, ona üzv olmaq və ya onun fəaliyyətində iştirak etmək hüququ qanunla təmin olunsa da, bu hüquqlar Azərbaycanda daimi yaşayış yerinin olması tələbi səbəbindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan vətəndaşları ilə müqayisədə müəyyən qədər məhdudlaşdırılmışdır. Bundan əlavə, ağır tələblər, uzun sürən qeydiyyat və əsassız imtinalar VCT-lərin rəsmi qeydiyyata alınmasını daha da çətinləşdirir.

Yeganə dəyişiklik VCT-lərin sayının artaraq 4500-dən çox olmasıdır. ƏN-in rəsmisi bildirmişdir ki, VCT-lərin və onların qrantlarının elektron qaydada qeydiyyatı üçün tədbirlər görülür. Azərbaycanda COVID-19 ilə mübarizə aparmaq üçün xüsusi karantin rejiminin tətbiq edilməsi səbəbindən VCT-lər birləşmək azadlığından geniş istifadə etməmiş və ƏN-də qeydiyyatdan keçmək üçün müraciət edə bilməmişlər.

Əvvəlki "VCT Ölçü meyarı" hesabatında bu sahə ilə bağlı verilmiş bütün tövsiyələr yerinə yetirilməmiş qalır. Konkret olaraq, VCT-lər üçün qeydiyyat prosedurunun sadələşdirilməsi, xarici könüllülərin müvafiq yaşayış icazəsi alması üçün mexanizmin təmin etməsi və VCT-lərin kiçikliyinə və dövriyyəsinə görə hesabat öhdəliklərinin sadələşdirilməsi haqqında tövsiyələrin nəzərə alınmasına təcili ehtiyac var.

## 3.2 Bərabər rəftar

Bu müddət ərzində bərabər rəftar sahəsində ciddi irəliləyiş əldə olunmayıb. VCT-lərin qeydiyyatı proseduru hələ də ləng, daha az əlçatan olaraq qalmaqdadır və VCT-lərin hesabatlılıq yükü və qeydiyyatı kommersiya qurumlarına nisbətən daha ağırdır. Hətta VCT-lər arasında da hökumətdən birbaşa subsidiya alanlara (Yazıçılar Birliyi, Rəssamlar İttifaqı və s. kimi) müstəqil VCT-lərlə müqayisədə daha üstün münasibət göstərilir. Əvvəlki hesabatda göstərilən əsas problemlər qalmaqdadır. Qeyd etmək lazımdır ki, parlament seçkilərində namizədliyini irəli sürmüş VCT rəhbərlərinə digər namizədlərlə tamamilə eyni münasibət göstərilmişdir.

## 3.3 Maliyyəyə çıxış

Bu sahədə VCT-lərin fəaliyyətinə təsir edəcək müsbət irəliləyişlər olmuşdur və bu səbəbdən ümumi mühit yaxşılaşmışdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, VCT-lərə verilən qrantların sayı əvvəlki illərlə müqayisədə artmışdır. Məsələn, QHT-lərə Dəstək Şurası 18 dövlət orqanı ilə birgə qrant müsabiqələrinə başlamışdır. Qrant üçün müraciət

etmənin qaydaları və qrant layihəsinin mövzuları barədə QHT-lər üçün bir neçə məlumatlandırma sessiyası keçirilmişdir. Məsələn, mövzulara bunlar daxil idi: əhali arasında elektron xidmətlər barədə məlumatlılığın artırılması, elektron hökumət və elektron xidmətlərin istifadəsi ilə bağlı jurnalistlər üçün təlim və s.[7] COVID-19 pandemiyası nəticəsində QHT-lərə Dəstək Şurası VCT-lər üçün 56 qrant verilməsini qərara almışdır.[8] Bununla belə, əvvəlki hesabatda bu sahədə göstərilən bütün tövsiyələr yerinə yetirilməmiş qalır. VCT-lərin daha səmərəli fəaliyyət göstərməsi üçün qrant və ianələrin qeydiyyatının sadələşdirilməsinə, xidmət müqavilələrinin qeydiyyatı tələbinin ləğv edilməsinə və əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə VCT-lərə ianə vermək hüququ verilməsinə təcili ehtiyac var.

Vergi Məcəlləsinin 106.1.18-ci maddəsində sahibkarlıq subyektlərinin mənfəət vergisinin 10 faizini elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən VCT-lərə ayırması mexanizmi 2019-cu ildən etibarən VCT-lər üçün yeni maliyyə mənbəyi olmuşdur. 12 mart 2020-ci ildə Azərbaycan Nazirlər Kabineti müəssisələr tərəfindən yuxarıda göstərilən mənfəətin 10 faizinin ayrılması üçün korporativ sosial məsuliyyət (KSM) mexanizminin tətbiq edilməsi barədə 88 saylı Qərar qəbul etdi.[9] Təəssüf ki, Nazirlər Kabineti bu qərarı VCT-lər və digər maraqlı tərəflərlə məsləhətləşmədən qəbul etdi və nəticədə, əfsuslar olsun ki, yalnız mədəniyyət sahəsindəki VCT-lər müəssisələrdən bu vəsaitləri ala biləcəklər, sosial, elm, təhsil və idman sahəsindəki VCT-lər isə onları ala bilməyəcəklər, çünki onların qərardakı meyarlara cavab verməsi mümkünsüzdür.

Azərbaycan Respublikası Prezidentinin 21 mart 2020-ci il tarixli Fərmanından[10] sonra ƏDV-nin geri qaytarılması qaydası təsdiq edilmişdir. Fərmana əsasən, yalnız fərdi istehlakçılar (fiziki şəxslər), Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycanda bank hesabına sahib olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər nağd ödənişlər üçün ƏDV-nin 10 faizini, kart vasitəsilə ödənişlər üçün isə 15 faizini geri almaq imkanından yararlana bilərlər. Qaydalar pərakəndə ticarət və iaşə fəaliyyəti ilə məşğul olan satıcılardan alınan mallara şamil edilir və neft və qaz məhsullarına şamil edilmir. Qanunvericilik VCT-lərin işçilərinə bu mexanizmdən əldə etdikləri kiçik gəlirlərini VCT-lərin xərclərinin (elektrik enerjisi, mobil telefon xərcləri, dəftərxana ləvazimatları və s.) ödənilməsi üçün istifadə etmək imkanı verir.

Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamı ilə COVID-19 pandemiyası ilə əlaqədar vətəndaşlara dəymiş maddi ziyanın aradan qaldırılması üçün kompensasiya mexanizmi yaradılmışdır.[11] Həmin qaydalara əsasən, yalnız "xüsusi" iqtisadi fəaliyyətlə məşğul olan hüquqi şəxslər (VCT-lər daxil olmaqla) və fiziki

[7] http://qhtxeber.az/news.php?id=19777&lang=az.
http://www.qht.az/index.php?action=static_detail&static_id=36229.
[8] https://modern.az/az/news/232744.
[9] https://nk.gov.az/az/document/4325/.
[10] https://president.az/articles/36239.
[11] https://president.az/articles/36228.

şəxslər kompensasiya ala biləcəklər. Bu tədbir pandemiyanın təsirinə məruz qalan bölgələrdə və sahələrdə (əmək müqaviləsi ilə) çalışan 300.000 işçinin maaşlarının bir hissəsini ödəmək üçün sahibkarlıq subyektlərinə dövlət tərəfindən 215 milyon AZN (təqribən 108 milyon avro) maliyyə dəstəyi verilməsini nəzərdə tutur. Bu mexanizm çərçivəsində vergi ödəyicilərinin İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) vasitəsilə etdikləri müraciətlər əsasında qısa müddət ərzində müvafiq işçilərə ödəniləcək maaşların və müvafiq sosial sığorta haqlarının müəyyən bir hissəsi işəgötürənlərin bank hesablarına köçürüləcəkdir.

## 3.4 Dinc toplaşmaq azadlığı

COVID-19 pandemiyası səbəbindən bu sahə məhdudiyyətlərin təsirinə ən çox məruz qalan sahədir. Bu hesabatın əhatə etdiyi dövrdə VCT-lərin sərbəst toplaşmaq azadlığı, demək olar ki, tamamilə məhdudlaşdırılmışdır. Bu mövzunun Azərbaycanda həssas mövzu olmasından əlavə, indi vətəndaşlar COVID-19 pandemiyası səbəbindən fiziki toplantılar keçirmək imkanından məhrum olmuşlar, onlayn müzakirələr isə vətəndaşlarla və maraq qrupları ilə çoxsaylı görüşlərin yerini verə bilmir. Bu səbəbdən VCT-lər özlərinin maraq dairəsində olan kontingentlə səmərəli əlaqə qurmaq imkanlarından məhrum olmuşlar. Xüsusi karantin rejimi dövründə əksər VCT-lər öz fəaliyyətlərini onlayn rejimində həyata keçirmişlər. Bu sahədə də ciddi bir dəyişiklik baş verməmişdir və əvvəlki hesabatdakı sərbəst toplaşmaq azadlığı ilə bağlı tövsiyələr yerinə yetirilməmiş qalır. VCT-lər hələ də Azərbaycanın bölgələrində tədbirlərin təşkilində böyük çətinliklərlə üzləşirlər. Buna baxmayaraq, 20 oktyabr 2019-cu ildə bir qrup fəal Bakının mərkəzində “Dözmə, yürüş et” şüarı ilə[12] və 8 mart 2020-ci ildə “Bizimdir hürr küçələr” şüarı ilə[13] yürüş keçirdilər. Yürüşlərin məqsədi çoxsaylı qadın qətllərinə, yetkinlik yaşına çatmayanların nikahlarına, uşaqların istismarına, gender əsaslı zorakılığa etiraz etmək və insanları kişi təcavüzünə qarşı səfərbər etmək idi. Yürüş iştirakçıları məişət zorakılığı ilə üzləşən qadınlara dəstək olduqlarını bildirərək bu kimi hallara son qoyulmasını tələb etdilər.

Operativ Qərargah 2020-ci il martın 24-dən aprelin 20-dək Azərbaycan Respublikasında xüsusi karantin rejimi elan etdi[14] və yaşayış yerini tərk etməyə qoyulan məhdudiyyətlərdən əlavə 10-dan çox şəxsin bir yerə toplaşması qadağan edildi. Bu müddət daha sonra 2020-ci il mayın 4-dək uzadıldı. 2020-ci il aprelin 5-dən mayın 5-dək və 2020-ci il iyunun 21-dən avqustun 5-dək hökumət COVID-19-un yayılmasının qarşısını almaq məqsədilə insanların yaşayış yerlərini tərk edərkən icazə almalarını nəzərdə tutan xüsusi SMS icazə sistemi tətbiq etdi.[15] Bu dövrdə sərbəst toplaşmaq

12 https://www.bbc.com/azeri/azerbaijan-50117018.
13 https://www.bbc.com/azeri/51741312.
14 https://nk.gov.az/az/article/761/.
15 https://nk.gov.az/media/files/a2e7be5b2d78d342ae07a4854a2ba51e.pdf. https://nk.gov.az/az/document/4517/.

azadlığına dair qanunvericilikdə heç bir dəyişiklik edilməmişdir və əvvəlki hesabatda verilən tövsiyələr yerinə yetirilməmiş qalır.

## 3.5 Qərarların qəbulunda iştirak etmək hüququ

2020-2022-ci illər üçün AHT-yə dair Fəaliyyət Planının təsdiqlənməsi, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının vacibliyinin Prezident İlham Əliyev tərəfindən vurğulanması və bəzi vətəndaş cəmiyyəti təmsilçilərinin parlamentə seçilməsi ilə bu sahədə VCT-lər üçün mühit bir qədər yaxşılaşmışdır. Bu, VCT-lərin narahatlıqlarını və problemlərini keçmiş VCT üzvləri vasitəsilə daha əlçatan kanallardan istifadə edərək hökumətə çatdırmalarına imkan vermişdir. Buna baxmayaraq, praktikada tənqidçi QHT-lər təzyiqlə qarşılaşır və çox vaxt dövlət qurumları hər hansı qanunun və ya siyasətin qəbulu və ya müzakirəsi zamanı VCT-lərlə məsləhətləşmirlər. Digər tərəfdən, Azərbaycan qanunvericiliyi dövlət siyasətinin hazırlanması və müzakirəsində VCT-lərin iştirakını məhdudlaşdırmır.

Hesabat dövründəki əsas hadisələrdən biri 9 fevral 2020-ci il tarixli parlament seçkiləri idi. Azərbaycan VCT-lərinin təxminən 20 rəhbəri seçkilərdə namizədliyini vermişdi. 10 mart 2020-ci ildə parlamentin yeni üzvləri qarşısındakı çıxışında Prezident Əliyev ictimai nəzarətin gücləndirilməsinin vacibliyindən danışdı.[16] Buna görə də 2020-ci ildə bu sahədə müəyyən müsbət irəliləyişlərin olması mümkündür. 27 fevral 2020-ci ildə Prezident Əliyev "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncam imzaladı. AHT-yə dair Fəaliyyət Planı VCT-lərin və ayrı-ayrı mütəxəssislərin yaxından iştirakı ilə hazırlanmış və VCT-lərin tövsiyələrinin təxminən 90 faizi nəzərə alınmışdır. AHT-yə dair Fəaliyyət Planı korrupsiyaya qarşı mübarizə, şəffaflığın artırılması, qrantların qeydiyyatının sadələşdirilməsi, VCT-lərin qeydiyyatının sadələşdirilməsi, ÇPY/TMM haqqında qanunvericiliyin sadələşdirilməsi, dövlət xidmətlərinin yaxşılaşdırılması, VCT-lərdən ibarət ictimai şuraların səmərəliliyinin artırılması, VCT-lərlə müntəzəm görüşlər keçirilməsi və s. kimi sahələrdə fəaliyyətləri əhatə edən 13 səhifəlik sənəddir. AHT-yə dair Fəaliyyət Planında nəzərdə tutulan bu fəaliyyətlərin bəziləri, o cümlədən aşağıdakı fəaliyyətlər əvvəlki "VCT Ölçü meyarı" hesabatında tövsiyə edilmişdi: VCT-lərin və qrantların qeydiyyatının sadələşdirilməsi; ictimai şuraların əhəmiyyətinin artırılması; dövlət qurumlarında yaradılan ictimai şuraların sayının artırılması; ictimai şuralarda müzakirə olunan məsələlərin əhatə dairəsinin genişləndirilməsi; ictimai şuraların fəaliyyətləri barədə məlumatlılığın artırılması və dövlət qurumlarının rəsmi saytlarında onların işıqlandırılması; milli səviyyəli qurumlara və yerli icra hakimiyyəti orqanlarına ictimai şuralar yaratmaq səlahiyyətinin verilməsi; və ictimai şuraların fəaliyyətinə dair ictimaiyyətə məlumat verilməsi.[17]

16 https://www.turan.az/ext/news/2020/3/free/politics%20news/az/122258.htm.
17 https://president.az/articles/35990.

AHT-yə dair 2020-2022-ci illər üçün Fəaliyyət Planı "İnformasiya əldə etmək haqqında" Qanuna dəyişiklikləri özündə ehtiva edir. Sənədə əsasən, 2020-2021-ci illərdə Nazirlər Kabineti, ƏN və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi informasiyanın açıqlanması prosedurlarının təkmilləşdirilməsi, habelə açıq məlumatlardan istifadə edilməsini təmin etmək üçün müvafiq mexanizm və şərtlərin müəyyən edilməsi ilə bağlı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda və digər qanunvericilik aktlarında dəyişikliklərə dair təkliflər hazırlamalıdırlar.[18]

USAID tərəfindən maliyyələşdirilən ECSOFT təşəbbüsü nəticəsində şəffaflığı artırmaq üçün vasitə kimi milli dövlət orqanlarına məsləhət vermək və monitorinq etməkdən ötrü ictimai şuralar arasında onlayn sorğu hazırlanmış və həyata keçirilmişdir.[19]

Ümid edilir ki, bu tədbirlər VCT-lərin qərarların qəbulunda iştirakını asanlaşdıracaq. Yuxarıda qeyd edilənlərdən savayı VCT-lərin qərarların qəbul edilməsində iştirakında ciddi bir dəyişiklik olmamışdır. Bu hesabatdakı tövsiyələrin hökumət tərəfindən nəzərə alınacağına ümid edilir.

## 3.6 İfadə azadlığı

Hesabat dövründə ifadə azadlığının vəziyyətində əhəmiyyətli dəyişiklik olmamışdır. Azərbaycanda ifadə azadlığı həssas mövzu olaraq qalmaqda davam edir. Əvvəlki hesabat dövründə olduğu kimi, sosial şəbəkələr vətəndaş cəmiyyəti üzvlərinin ifadə azadlığı üçün nisbətən əlçatan məkan olmuşdur. Əvvəllər olduğu kimi bəzi internet və ənənəvi media nəşrlərinin qara siyahıya salınması davam etmişdir. Diffamasiya (təhqir və böhtan) cinayət əməli olaraq qalır.

2019-cu il hesabatında bu sahə ilə bağlı verilən bütün tövsiyələrin yerinə yetirilməsinə hələ də ehtiyac vardır. 17 mart 2020-ci ildə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edildi.[20] Nəticədə Qanuna yeni 13-2.3.10-1-ci maddə əlavə edildi, orada deyilir:

> *"13-2.3.10-1. [İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir]: insanların həyat və sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının törədilməsi, ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulması, həyat təminatı obyektlərinin, maliyyə, nəqliyyat, rabitə, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhdidini törədən yalan məlumatlar".*

---

[18] http://www.e-qanun.az/framework/44619.
[19] http://www.qht.az/index.php?action=static_detail&static_id=36944.
[20] http://e-qanun.az/framework/44788.

Bəzi VCT üzvləri[21] narahatlıqlarını bildirmişlər ki, yeni əlavə edilmiş dəyişikliklər geniş təfsir oluna bilər və hökumət tərəfindən sosial şəbəkələrdə ifadə azadlığının qarşısının alınmasında rol oynaya bilər.

Əvvəlki hesabatda verilən tövsiyələr yerinə yetirilməmiş qalır. Konkret olaraq, qanunvericiliyə diffamasiyanı dekriminallaşdıran və onu cinayət əməli kimi deyil, inzibati hüquqpozma kimi müəyyən edən dəyişiklik daxil edilməsinə ehtiyac vardır.

## 3.7 Şəxsi həyatın toxunulmazlığı hüququ

Bu sahədə ciddi bir dəyişiklik müşahidə olunmayıb və əvvəlki hesabatda qeyd edilən tövsiyələrin yerinə yetirilməsinə cəhd göstərilməyib. 2017-2018-ci illərdə olduğu kimi, bu hesabat dövründə də vətəndaş cəmiyyəti üzvlərinin şəxsi həyatının toxunulmazlığı hüququna edilmiş müdaxilələr qeydə alınmamışdır. Eyni zamanda, yerli mobil operatorlar abunəçilər haqqında məlumatları abunəçilərin razılığı olmadan üçüncü şəxslərə (məsələn, reklam və ya bildirişlər göndərmək üçün) ötürürlər.

Bundan əlavə, 2019-cu ilin sonunda/2020-ci ilin əvvəlində VCT-lər barəsində hər hansı qanunsuz yoxlama və ya təqib baş verməmişdir. Xüsusilə, “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar” Avropa Şurası Konvensiyasının “Nəzarət orqanlarına və transsərhəd məlumat axınlarına dair” Əlavə Protokolunun Azərbaycan tərəfindən imzalanmasına və sosial şəbəkələrdə saxta profillərin istifadəsinin dekriminallaşdırılmasına və hər hansı sanksiyaların mütənasibliyinin təmin edilməsinə ehtiyac vardır.

## 3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi

Bu sahədə əhəmiyyətli dəyişiklik olmamışdır. VCT-lərə qarşı cəzalar ağırdır və pozuntuların xarakterinə mütənasib deyil. Ekstremizm, korrupsiya və ya ÇPY/TM ilə mübarizəyə dair qanunvericilik tələbləri VCT-lər üçün ağırdır və əksər təşkilatların onlara əməl etmək üçün resursları yoxdur. 2019-cu ilin sonu və 2020-ci ilin əvvəlində “İşgüzar Qadınlar İnkişaf Naminə” ictimai birliyi sənədləri yeni mühasibat standartlarına uyğun gəlmədiyi üçün cərimələnmişdir.[22] Lakin sonrakı dövr ərzində VCT-lərə heç bir cərimə tətbiq edilməmişdir. VCT-lərə qarşı cəza sanksiyalarına yenidən baxılmasına və onların müvafiq hüquq pozuntusuna mütənasib hala gətirilməsinə təcili ehtiyac vardır. Bu dövr ərzində sektorun inkişafında ciddi bir dəyişiklik olmasa da, 18 dekabr 2019-cu ildə FATF-a dair beynəlxalq konfransında ƏN-in rəsmisi ÇPY/TMM haqqında qanunvericilikdə dəyişikliklərin planlaşdırıldığını və bunun VCT-lərə müsbət təsir göstərəcəyini söyləmişdir.

[21] http://www.turan.az/ext/news/2020/3/free/Interview/az/122579.htm.
[22] https://musavat.com/mobile/news/qht-sedri-1500-manat-cerime-edilib_659844.html.

## 3.9 Dövlət dəstəyi

Bu dövrdə SƏLİS sisteminin (Sürətli Əlaqələndirmə və Layihələri İdarəetmə Sistemi) tətbiqi ilə dövlət dəstəyi bir qədər təkmilləşdi. Digər tərəfdən, hökumət tərəfindən VCT-lərə verilən qrantların sayı və miqdarı az olaraq qalır və qrantlar, ianələr və üzvlük haqlarının vergidən azad olmasına baxmayaraq VCT-lər üçün vergi mühiti "əlverişli" adlandırıla bilməz. Xarici maliyyənin ƏN-də qeydiyyatı ilə bağlı məsələlər mürəkkəb və çətin olaraq qalır. 30 oktyabr 2019-cu ildə QHT-lərə Dəstək Şurası və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təşkil edilən SƏLİS sisteminin təqdimatı keçirildi.[23] SƏLİS sisteminin yaradılmasında əsas məqsəd VCT-lərə müasir tələblərə uyğun dövlət dəstəyini təşkil etmək, VCT-hökumət münasibətlərində yeni əməkdaşlıq modelini formalaşdırmaq, QHT-lərə Dəstək Şurasının şəffaflığını, hesabatlılığını və səmərəliliyini daha da artırmaq, mümkün mənfi halları və subyektiv amilləri azaltmaq və qərarların qəbulu prosesində vətəndaşların iştirakına nəzarət etmək və bu iştirakı təmin etməkdir. SƏLİS 20-yə qədər elektron xidməti birləşdirən sistemdir. VCT-lər üçün elektron tətbiqlər, elektron növbələr, elektron müraciətlər, elektron idarəetmə, elektron hesabat və ictimai təşkilatların fəaliyyətləri üçün donorla əlaqə qurmaq məqsədilə yaradılan bütün digər imkanlar mövcuddur.[24]

Humanitar təşkilatların əmək haqqı vergisinə dair tövsiyələr bir qrup mütəxəssis və AHT milli platforması tərəfindən hazırlanmış və hökumətə göndərilmişdir. Nazirlər Kabinetinin siyahısında yer alan humanitar VCT-lərin yerli işçiləri üçün sosial fondlara əvvəllər ödəmədikləri sosial ödəmələri ödəməsi artıq tələb olunur. Bu dəyişiklik 2018-ci ilin noyabr ayında "Sosial sığorta haqqında" Qanunda edilmiş dəyişikliklər nəticəsində tətbiq olunmuşdur.[25]

Hökumətin əvvəlki hesabatda verilən tövsiyəyə uyğun olaraq müəssisələrin mənfəətinin 10 faizinin VCT-lərə ayrılması üçün KSM mexanizmi tətbiq etməsinə baxmayaraq, bu qayda yalnız az miqdarda VCT-yə təsir göstərir. Digər tərəfdən, hesabatdakı digər tövsiyələr, xüsusən bir gündən artıq olmayan müvəqqəti işlər üçün könüllü ilə yazılı müqavilə bağlamaq tələbinin ləğvinə və institusional potensiallarını artırmaları üçün VCT-lərə verilən qrantın miqdarının artırılmasına dair tövsiyələr yerinə yetirilməmiş qalır.

## 3.10 Dövlət-VCT əməkdaşlığı

Bu sahədə əhəmiyyətli dəyişiklik olmamışdır. COVID-19 pandemiyası səbəbindən VCT-lər dövlət-VCT əməkdaşlığının artıq mövcud olan məhdud kanallarından istifadə edə bilməmişlər. 5 noyabr 2019-cu ildə QHT-lərə Dəstək Şurası "SƏLİS Jurnalist"

---

23 http://www.cssn.gov.az/news.php?id=3786&lang=az.
24 https://musavat.com/news/vetendaslar-ucun-selis-imkan-e-vetendas-ol_615066.html.
25 http://e-qanun.az/framework/41096.

nominasiyası üzrə yazı müsabiqəsi elan etdi.[26] Müsabiqəyə təqdim olunan məqalələr ölkədəki iqtisadi, sosial və kadr islahatları, ictimai nəzarətin səmərəli təşkili və milli maraqların qorunması, yeni imkanlar və VCT-lərlə dövlət qurumları arasında əməkdaşlıq perspektivlərini əhatə edirdi. Qaliblərə pul mükafatları təqdim edildi. Bundan əlavə, COVID-19 ilə əlaqədar olaraq hökumət-VCT əməkdaşlığında bir qədər artım müşahidə edildi. QHT-lərə Dəstək Şurası tərəfindən 2 aprel 2020-ci ildə keçirilmiş 391 VCT ilə onlayn konfrans VCT-lərin fəaliyyətlərini koordinasiya etmək və COVID-19 ilə əlaqədar məsələləri həll etmək üçün hökumət-VCT əməkdaşlığına inandırıcı cəhd kimi qəbul edilə bilər. "İctimai iştirakçılıq haqqında" Qanunda nəzərdə tutulmuş mexanizmlərə uyğun olaraq, dövlət qurumları ilə VCT-lər arasında mərkəzi və yerli səviyyələrdə əməkdaşlığı asanlaşdırmaq üçün tədbirlərin görülməsinə ehtiyac var.

## 3.11 Digər yeni proseslər

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda 9 iyul 2019-cu il tarixli dəyişikliklə[27] Azərbaycanda kommersiya məhkəmələri yaradıldı. Dəyişikliyə əsasən, kommersiya məhkəməsi birinci instansiya məhkəməsi olaraq öz səlahiyyətləri daxilində olan kommersiya mübahisələrinə baxacaqdır. Dəyişiklik 1 yanvar 2020-ci ildə qüvvəyə minmişdir. Nəticədə Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı[28] ilə hakimlərin ümumi sayı 200 nəfər artırılmışdır ki, bu da insan hüquq və azadlıqları və digər vətəndaş cəmiyyəti məsələləri ilə bağlı iş yükünün və işlərin həllinə sərf olunan vaxtın azalmasına səbəb ola bilər.

Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli Qanununa uyğun olaraq 2020-ci il üçün ölkə üzrə yaşayış minimumu 190 AZN (təxminən 96 avro), işləyən əhali üçün 201 AZN (təxminən 101 avro), pensiyaçılar üçün 157 AZN (təxminən 79 avro) və uşaqlar üçün 170 AZN (təxminən 85 avro) müəyyən edildi.[29] Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2019-cu il tarixli Sərəncamı ilə minimum əmək haqqı 250 AZN-ə (təxminən 125 avro) qaldırılmışdır.[30]

COVID-19 pandemiyası səbəbindən 17 mart 2020-ci ildə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində[31] və İnzibati Xətalar Məcəlləsində[32] dəyişikliklər edilməsi barədə qanunlar qəbul edildi. Cinayət Məcəlləsinə yeni əlavə olunmuş 139-1-ci maddəyə əsasən, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimi qaydalarının pozulması, cinayətin ağırlıq dərəcəsindən asılı olaraq, 2500-5000 AZN

---

[26] http://www.cssn.gov.az/news.php?id=3787&lang=az.
[27] http://e-qanun.az/framework/42912.
[28] https://president.az/articles/32587.
[29] https://president.az/articles/35202.
[30] http://www.e-qanun.az/framework/42684.
[31] https://president.az/articles/36220.
[32] http://e-qanun.az/framework/44785.

(təxminən 1260-2500 avro) miqdarında cərimə və ya beş ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır. İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi yenilənmişdir və orada deyilir ki, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimi qaydalarının pozulmasına görə, fiziki şəxslər 100-200 AZN (təxminən 50-100 avro), vəzifəli şəxslər 1500-2000 AZN (təxminən 750-1000 avro), yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək inzibati həbslə cəzalandırılır. Hüquqi şəxslər 1500 AZN-dən 2000 AZN-dək (təxminən 750-1000 avro) cərimə olunurlar. Bu dəyişikliklər karantin rejiminin mühafizəsi adı ilə VCT-lərə qarşı əlavə sanksiyaların tətbiqi və ümumiyyətlə hərəkət və toplaşmaq azadlığının daha sərt şəkildə məhdudlaşdırılması üçün vasitə rolunu oynaya bilər.

COVID-19 pandemiyası dövründə bir sıra Azərbaycan VCT-ləri sahibkarlıq subyektlərinə və aztəminatlı ailələrə dəstək məqsədi ilə müxtəlif layihələr həyata keçirdilər. Məsələn, Sahibkarlığın İnkişafı Fondu (SİF) donorlar tərəfindən maliyyələşdirilən layihələri çərçivəsində 50-ə yaxın startap layihəsini müəyyən avadanlıq və texniki vasitələrlə dəstəklədi. Bu cür dəstək bərbərxana, dərzixana, çörəkbişirmə və sənətkarlıq müəssisələri kimi yeni müəssisələrin inkişafına təkan verəcəkdir. Onlarla digər VCT-lər müxtəlif rayon və şəhərlərdə aztəminatlı ailələrə qida və gigiyena məhsulları payladılar. Bu təşəbbüslərin bəziləri QHT-lərə Dəstək Şurası tərəfindən maliyyələşdirilmişdir.

# IV. ƏSAS PRİORİTETLƏR

2019-cu ilin sonunda və 2020-ci ilin əvvəlində VCT-hökumət əməkdaşlığında kiçik inkişaf əlamətləri olsa da, xüsusən VCT-lərin qrantları, xidmət müqavilələri, ianələrin qeydiyyatı, qərarların qəbulunda VCT-lərin iştirakı və sərbəst toplaşmaq azadlığı sahəsində mövcud problemlər və məhdudiyyətlər həll olunmamış qalır. Konkret olaraq, VCT-lərin qeydiyyatı prosedurlarının sadələşdirilməsinə və müddətlərinin azaldılmasına, qrantların, xidmət müqavilələrinin və ianələrin qeydiyyatının sadələşdirilməsinə və ya ləğv edilməsinə xüsusi ehtiyac vardır. Kraudfandinq (vətəndaşlardan könüllü şəkildə vəsait toplanması) və ya xarici vətəndaşlardan ianələrin alınması kimi yeni maliyyə mənbələrinə çıxışın təmin edilməsi və ya mövcud maliyyə mənbələrinə çıxışın sadələşdirilməsi (yəni xidmət müqavilələrinin və kiçik ianələrin qeydiyyatı tələbinin ləğvi) vətəndaş cəmiyyətinin inkişafına kömək edəcəkdir.

Təəssüf ki, yalnız əvvəlki hesabatdakı üç tövsiyə ilə əlaqədar irəliləyişdən danışa bilərik. Bu tövsiyələr VCT-lərin qeydiyyatının sadələşdirilməsini, kommersiya şirkətlərinin mənfəətlərinin 10 faizini VCT-lər üçün ayırması mexanizminin işlənib hazırlanmasını, habelə ekstremizm, terrorizm, çirkli pulların yuyulması və korrupsiya ilə mübarizə ilə bağlı VCT-lərin öhdəliklərinin yenidən nəzərdən keçirilməsini özündə ehtiva edir ki, bunda da məqsəd həmin öhdəliklərin risk əsaslı yanaşma əsasında yalnız vəsaitləri müəyyən məbləğ həddini keçən (məsələn, illik dövriyyəsi 50.000 AZN-dən çox olan) VCT-lərə tətbiq edilməsidir. Lakin bu irəliləyişlər yuxarıda göstərilən üç tövsiyəni tam mahiyyəti etibarilə yalnız qismən həll etmişdir. Bu irəliləyişlərə ƏN rəsmisinin VCT-lərin elektron qeydiyyatı üçün verdiyi vəd, terrorizm və çirkli pulların yuyulmasına qarşı mübarizədə VCT-lər üçün müsbət dəyişikliklər vəd edən qanun layihəsi barədə məlumat və sahibkarlıq subyektlərinin mənfəətlərinin 10 faizinin VCT-lərə köçürülməsi mexanizmi daxildir. Amma onu da qeyd etmək lazımdır ki, sahibkarlıq subyektlərinin mənfəətlərinin 10 faizinin VCT-lərə köçürülməsi mexanizmi çox az sayda VCT-yə aid olduğu üçün ümumiyyətlə az əhəmiyyət kəsb edir. Əvvəlki hesabatdakı tövsiyələrin qalan hissəsi nəzərə alınmamış və ya yerinə yetirilməmişdir.

# V. İSTİNADLAR

Ölkə üzrə bu yenilənmiş versiyanın hazırlanmasında "VCT Ölçü meyarı" hesabatından, media materiallarından və qanunvericiliyin təhlilindən istifadə edilmişdir.

**İstinad edilmə ardıcıllığı ilə qanunvericilik aktlarının siyahısı:**


"Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.18-ci maddəsinə uyğun olaraq, vergidən azadolunma məqsədləri üçün elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların Meyarları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 mart 2020-ci il tarixli 89 №-li qərarı - https://nk.gov.az/az/document/4325/.

Azərbaycan Respublikası Prezidentinin 21 mart 2020-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları istisna olmaqla) görə ödənilmiş ƏDV-nin qaytarılması QAYDASI" - https://president.az/articles/36239.

"Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamı - https://president.az/articles/36228.

"Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli 124 №-li Qərarı – https://nk.gov.az/media/files/a2e7be5b2d78d342ae07a4854a2ba51e.pdf.

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2020-ci il tarixli 1859 №-li Sərəncamı - http://www.e-qanun.az/framework/44619.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 17 mart 2020-ci il tarixli 30-VIQD №-li Qanunu - http://e-qanun.az/framework/44788.

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1360-VQD №-li Qanunu - http://e-qanun.az/framework/41096.

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 9 iyul 2019-cu il tarixli 1632-VQD №-li Qanunu - http://e-qanun.az/framework/42912.

“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanı - https://president.az/articles/32587.

“Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli Qanunu - https://president.az/articles/35202.

“Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2019-cu il tarixli 1265 №-li Sərəncamı - http://www.e-qanun.az/framework/42684.

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 19 mart 2020-ci il tarixli Qanunu - https://president.az/articles/36220.

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 17 mart 2020-ci il tarixli Qanunu - http://e-qanun.az/framework/44785.